# Bəxt oyunları (lotoreya)

## Bəxt oyunları (lotoreya)

**Sual 1237:** **Lotoreya biletlərini almaq və satmağın və uduşa düşən hədiyyənin hökmü nədir?**

**Cavab: Lotoreya biletlərinin alğı-satqısı ehtiyat-vacibə görə, haramdır. Hədiyyəni udan şəxs onun maliki olmur və hədiyyəni almağa haqqı yoxdur.**

**Sual 1238:** **"Firavan həyat müjdəsi" adı ilə camaat arasında yayılan biletləri almaq və bu biletlərə aid püşkatmada iştirak etməyin hökmü nədir?**

**Cavab: Xeyriyyə işlərinə camaatdan yardım yığmaq məqsədi dayışan biletləri paylamağın və yardım edənləri püşkatma ilə təşviq etmək və həvəsləndirməyin şəri qadağası yoxdur. Həmçinin xeyriyyə işlərində iştirak etmək məqsədilə bu biletləri almaq üçün pul ödəməyin maneəsi yoxdur.**

**Sual 1239:** **Bir şəxs öz maşınını lotoreya oyununa qoymuşdur. Belə ki, oyun iştirakçısı müəyyən tarixdə püşk atılacaq bileti müəyyən qiymətə alır. Bir qrup insan püşkatmada iştirak edir və həmin günün axırında püşk atılır. Püşkdə kimin adı çıxırsa, həmin şəxs qalib olur və bahalı maşını təhvil alır. Püşkatma yolu ilə maşının bu şəkildə verilməsinə şəri baxımdan icazə verilirmi?**

**Cavab: Belə biletlərin alğı-satqısı ehtiyata görə, haramdır və hədiyyəni udan şəxs onun sahibi olmur. Suala əsasən, hədiyyəni udan şəxsin sözügedən maşının sahibi ola bilməsi üçün maşının sahibi "şəri əqdlər"dən biri, məsələn, alğı-satqı, hədiyyə, müsalihə əsasında onu udan şəxsin mülkiyyətinə keçirməlidir.**

**Sual 1240:** **Camaatın xeyriyyə işlərinə olan yardımlarını yığmaq məqsədi daşıyan biletləri satmaq olarmı? Belə ki, yardım yığılandan sonra püşk atılır və yığılan yardımın bir hissəsi hədiyyə ünvanında püşkdə adı çıxanlara verilir, qalan hissəsi isə ümumi xeyri olan işlərə sərf edilir.**

**Cavab: Bu işi "alğı-satqı" adlandırmaq düzgün deyildir. Amma bu biletləri camaat arasında yaymaq və xeyriyyə işləri üçün yardım yığmağın maneəsi yoxdur. Püşkdə adı çıxanlara hədiyyələrin veriləcəyi vədi ilə camaatı yardım etməyə təşviq etmək də olar. Bu şərtlə ki, camaat bu biletləri xeyriyyə işlərində iştirak etmək məqsədilə əldə etməlidirlər.**

**Sual 1241:** **Xüsusi bir şirkətin əmlakı olan lotoreya biletlərini almaq olarmı, belə ki, gəlirin yalnız iyirmi faizi qadın xeyriyyə müəssisələrinə veriləcəkdir?**

**Cavab: Lotoreya biletlərinin alğı-satqısı ehtiyat-vacibə görə, haramdır və bu biletlərin püşkatmasında adı çıxan şəxslər aldıqları pulun sahibi olmurlar.**